*Peşə təhsili və insan kapitalı. Cild 9, №3, 2026, s.83-90*

# QƏRBİ AZƏRBAYCANIN TÜRK MƏNŞƏLİ ETNOTOPONİMLƏRİNİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ



**Könül Səmədova,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor*
*e-mail: samedovakonul74@mail.ru*
*https://orcid.org/0000-0003-4061-9775*
*https://doi.org/10.30546/2706-7858.2026.09.3.383*

**UOT:** 81

**Xülasə.** *Qərbi Azərbaycanın türk mənşəli etnotoponimləri Azərbaycan və ümumtürk onomastikasının qədim qatını təşkil etməklə yanaşı, türk dillərinin tarixi inkişafının, toponimyaratma modellərinin və etnik-mədəni münasibətlərinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyətə malikdir. Məqalədə Qərbi Azərbaycan ərazisində yayılmış türk mənşəli etnotoponimlər struktur-semantik aspektdə araşdırılmış, onların morfoloji quruluşu, fonetik transformasiyaları, semantik motivasiyası və nominativ xüsusiyyətləri təhlil edilmişdir. Etnonimlərin oykonim, hidronim və oronim funksiyası qazanması, sadə, düzəltmə və mürəkkəb toponim modellərinin formalaşması, həmçinin fonetik dəyişikliklərin (b–v, z–s əvəzlənməsi, metateza, assimilyasiya və s.) etnotoponimlərin inkişafındakı rolu müqayisəli materiallar əsasında qiymətləndirilmişdir. Araşdırma zamanı Qərbi Azərbaycan etnotoponimləri Azərbaycan, Türkiyə, Türkmənistan və Qazaxıstan toponimikası ilə müqayisə olunmuş, eyni etnonimlərin müxtəlif türk coğrafiyalarında paralel şəkildə qorunmasının ümumtürk onomastik sisteminin vahid tarixi əsaslara söykəndiyini göstərdiyi müəyyən edilmişdir. Tədqiqat nəticəsində etnotoponimlərin yalnız coğrafi ad funksiyası daşımadığı, eyni zamanda türk xalqlarının qədim etnik yaddaşını, miqrasiya proseslərini və tarixi dil əlaqələrini əks etdirən mühüm dil vahidləri olduğu əsaslandırılmışdır. Müəyyən edilmişdir ki, Qərbi Azərbaycanın etnotoponimik sistemi struktur və semantik xüsusiyyətlərinə görə, ümumtürk onomastikasının ayrılmaz tərkib hissəsini təşkil edir və onun kompleks şəkildə öyrənilməsi Azərbaycan onomastikasının nəzəri əsaslarının, tarixi dilçiliyin və müqayisəli türk toponimikasının inkişafına mühüm töhfə verir.*

***Açar sözlər:*** *Qərbi Azərbaycan, etnotoponim, onomastika, struktur-semantik təhlil, fonetik transformasiya, toponimyaratma modelləri, oykonim, hidronim, oronim, türk dilləri, ümumtürk onomastikası, etnik yaddaş.*
***Keywords:*** *Western Azerbaijan, ethnotoponym, onomastics, structural-semantic analysis, phonetic transformation, toponym formation models, oikonym, hydronym, oronym, Turkic languages, Common Turkic onomastics, ethnic memory.*
***Ключевые слова:*** *Западный Азербайджан, этнотопоним, ономастика, структурно-семантический анализ, фонетическая трансформация, модели топонимообразования, ойконим, гидроним, ороним, тюркские языки, общетюркская ономастика, этническая память.*

Qərbi Azərbaycanın toponimik sistemi Azərbaycan onomastikasının ən qədim və zəngin qatlarından birini təşkil edir. Bu sistem daxilində mühüm yer tutan etnotoponimlər müxtəlif türk tayfalarının adları əsasında formalaşmış coğrafi adlar olmaqla yanaşı, dil tarixinin, etnik münasibətlərin və toponimyaratma prinsiplərinin öyrənilməsi üçün də mühüm elmi mənbə hesab olunur. Etnotoponimlər yalnız tarixi-etnoqrafik informasiya daşımır, eyni zamanda türk dillərinin fonetik inkişafını, söz yaradıcılığı modellərini, semantik motivasiya mexanizmlərini və areal dil əlaqələrini əks etdirən dil vahidləri kimi xüsusi əhəmiyyət kəsb edir.

Türk onomastikasında etnotoponimlərin öyrənilməsi göstərir ki, coğrafi adların böyük hissəsi müəyyən etnosun və ya tayfanın adı əsasında formalaşmışdır. Belə adlar yaranarkən etnonim ilkin semantik funksiyasını qismən itirərək yeni nominativ status qazanmış, konkret coğrafi obyektin adını bildirməyə başlamışdır. Bununla belə, həmin adların leksik əsasında qədim etnik məzmun qorunub saxlanılmış və bu xüsusiyyət onları digər toponimik vahidlərdən fərqləndirmişdir. Ona görə də etnotoponimlər həm leksik-semantik, həm də struktur baxımından ikili təbiətə malikdir: bir tərəfdən onlar coğrafi ad funksiyasını yerinə yetirir, digər tərəfdən isə qədim etnik sistem haqqında məlumatı özündə yaşadır.

Qərbi Azərbaycanın etnotoponimik sistemi bu baxımdan xüsusi maraq doğurur. Burada müşahidə olunan Aban, Abar, Abdal, Ayrım, Bayandur, Bayat, Əfşar, Karkın, Kabar, Qarqar, Kazan və digər etnotoponimlər yalnız tarixi baxımdan deyil, dil quruluşu etibarilə də zəngin material təqdim edir. Müxtəlif fonetik dəyişmələr, morfoloji transformasiyalar, semantik genişlənmələr və toponimyaratma modelləri həmin adların uzun tarixi inkişaf yolu keçdiyini göstərir [8, s.74-140].

Müasir onomastik tədqiqatlarda etnotoponimlərə struktur-semantik yanaşma xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma vasitəsilə coğrafi adların yaranma mexanizmi, fonetik dəyişiklikləri, morfoloji quruluşu və semantik motivasiyası müəyyən edilir. Eyni zamanda müxtəlif türk dillərində paralel şəkildə işlənən etnotoponimlərin müqayisəsi onların ortaq dil bazasını və ümumtürk onomastik sistemində tutduğu yeri müəyyən etməyə imkan verir. Bu baxımdan Qərbi Azərbaycanın etnotoponimik sistemi yalnız regional toponimika üçün deyil, bütövlükdə türk dillərinin tarixi onomastik inkişaf qanunauyğunluqlarının öyrənilməsi üçün də mühüm elmi əhəmiyyət kəsb edir.

**Türk mənşəli etnotoponimlərin struktur xüsusiyyətləri**

Qərbi Azərbaycanın etnotoponimləri struktur baxımından vahid sistem təşkil etmir. Onların yaranmasında müxtəlif morfoloji modellər iştirak etdiyindən sadə, düzəltmə və mürəkkəb quruluşlu toponimlər formalaşmışdır. Bu müxtəliflik yalnız toponimyaratma prosesinin məhsuldarlığını deyil, həm də müxtəlif tarixi mərhələlərdə türk dillərində baş vermiş morfoloji inkişafı əks etdirir.

Ən qədim təbəqəni sadə quruluşlu etnotoponimlər təşkil edir. Bu tip adlarda etnonim heç bir formal dəyişiklik keçirmədən birbaşa coğrafi obyektin adına çevrilmişdir. Bayat, Qarqar, Karkın, Qazan, Abdal, Avşar, Kabar, Bayandur kimi adlar həmin qrupa daxildir. Bu tip toponimlərdə etnonimlə toponim arasında formal fərq yaranmadığından onların ilkin etnik mənsubiyyətini müəyyənləşdirmək nisbətən asandır. Məhz buna görə də sadə quruluşlu etnotoponimlər qədim türk tayfalarının coğrafiyasının müəyyən edilməsində daha etibarlı dil faktı hesab olunur [8, s.74-140].

Düzəltmə etnotoponimlərdə isə tayfa adı müxtəlif toponimyaradıcı şəkilçilərlə birləşərək yeni nominativ vahid yaradır. Qərbi Azərbaycanın toponimik sistemində -lı (-li, -lu, -lü), -lıq, -çı, -lılar, -kənd, -abad kimi şəkilçilərin iştirakı ilə formalaşmış çoxsaylı etnotoponimlər mövcuddur. Bayatlı, Abbaslı, Qazançı, Bayandurlu, Abbaskənd, Abbasabad kimi nümunələr göstərir ki, etnonim yalnız əsas komponent kimi deyil, eyni zamanda yeni toponimlərin yaranması üçün məhsuldar leksik baza funksiyasını yerinə yetirmişdir [1, s.8-9].

Mürəkkəb quruluşlu etnotoponimlərdə isə etnonim başqa leksik vahidlərlə sintaktik əlaqəyə girərək yeni coğrafi ad əmələ gətirir. Böyük Ayrım, Molla Ayrım, Quşçu Ayrım, Yuxarı Abdallar, Aşağı Avşar, Bayat dağı, Bayatlar qışlağı, Abbas dərəsi kimi nümunələr həmin qrupa daxildir. Belə adlarda ikinci komponent obyektin növünü, ölçüsünü, coğrafi mövqeyini və ya so-

sial mənsubiyyətini bildirərək əsas etnonimi konkretləşdirir. Bu xüsusiyyət türk dillərində analitik toponimyaratma modelinin geniş yayıldığını göstərir.

Struktur baxımdan diqqəti cəlb edən digər xüsusiyyət etnonimin müxtəlif toponim siniflərində eyni məhsuldarlıqla işlənməsidir. Bir çox hallarda eyni tayfa adı həm oykonim, həm hidronim, həm də oronim yaradır. Məsələn, Qarqar adı yaşayış məntəqəsi, çay və düzənlik adı kimi, Bayat həm kənd, həm dağ, həm də qışlaq adı kimi, Abaran isə mahal, çay və yaşayış məntəqəsi adı kimi işlənmişdir [2, s.108]. Bu xüsusiyyət göstərir ki, etnonim müəyyən ərazidə uzun müddət aktiv nominativ vahid olaraq qalmış və müxtəlif coğrafi obyektlərə ad vermişdir.

Toponimyaratma prosesində müşahidə olunan struktur müxtəlifliyi türk dillərinin söz yaradıcılığı sisteminin məhsuldarlığını əks etdirir. Etnonim ilkin leksik mənasını qorumaqla yanaşı, yeni coğrafi mühitdə müxtəlif formalarda işlənmiş, nəticədə çoxqatlı toponimik sistem formalaşmışdır. Bu sistem yalnız dil tarixinin deyil, həm də qədim məskunlaşma proseslərinin öyrənilməsi üçün mühüm faktoloji material təqdim edir.

**Türk etnotoponimlərində fonetik transformasiyalar**

Qərbi Azərbaycanın etnotoponim sistemi yalnız qədim türk tayfalarının adlarını qoruyub saxlaması ilə deyil, həm də türk dillərinin tarixi fonetik inkişaf qanunauyğunluqlarını əks etdirməsi ilə diqqəti cəlb edir. Etnotoponimlərin müxtəlif fonetik variantlarda işlənilməsi, ilk baxışda ayrı-ayrı adlar təsiri bağışlasa da, müqayisəli-tarixi təhlil onların eyni etnik baza əsasında formalaşdığını göstərir. Bu baxımdan fonetik transformasiyaların araşdırılması etnotoponimlərin etimologiyasının müəyyənləşdirilməsində əsas metodlardan biri hesab olunur. Müxtəlif dövrlərdə dialekt fərqləri, tayfalararası dil əlaqələri, qonşu dillərin təsiri və daxili fonetik inkişaf nəticəsində eyni etnonim müxtəlif formalarda işlənmişdir. Lakin bu dəyişikliklər əsas leksik nüvəni dəyişdirməmiş, yalnız onun fonetik görünüşünü fərqləndirmişdir.

Türk etnotoponimlərində ən geniş yayılmış fonetik hadisələrdən biri b–v samit əvəzlənməsidir. Türk dillərinin tarixi inkişafında bilabial (qoşadodaq) partlayıcı b samitinin labiodental (dodaq-diş) v samitinə keçməsi çoxsaylı leksik vahidlərdə müşahidə olunur və bu qanunauyğunluq etnotoponimlərdə də özünü aydın göstərir. Qərbi Azərbaycanın toponimik sistemində Aban-Avan, Abar-Avar, Abdal-Avdal kimi paralel formalar həmin hadisənin tipik nümunələridir [8, s.9-78; 89-139]. Məsələn, Aban etnonimi antik mənbələrdə daha çox Aban formasında qeydə alınsa da, sonrakı dövrlərdə Avan şəklində işlənməsi fonetik inkişafın nəticəsi hesab edilir. Eyni hadisə Abdal-Avdal və Abar-Avar cütlüklərində də müşahidə olunur. Bu dəyişiklik semantik məzmun yaratmır, yalnız fonetik variasiya xarakteri daşıyır. Müxtəlif türk dillərində paralel şəkildə müşahidə edilən bu hadisə etnotoponimlərin ümumi mənşədən qaynaqlandığını təsdiqləyən mühüm fonetik göstəricidir.

Fonetik transformasiyalar sırasında z–s əvəzlənməsi də mühüm yer tutur. Türk dillərində səs tərkibinin tarixi inkişafı nəticəsində bəzi etnonimlərdə z və s samitləri qarşılıqlı şəkildə əvəzlənmişdir. Bu baxımdan Abaz-Abas formaları diqqəti cəlb edir. Tarixi mənbələrdə hər iki forma paralel şəkildə işlənmiş, lakin onların eyni etnik qrupa aid olduğu göstərilmişdir [8, s.139]. Eyni hadisə digər türk dillərində də müşahidə olunduğundan bu dəyişiklik təsadüfi fonetik hadisə deyil, ümumtürk səciyyəli inkişaf qanunauyğunluğu kimi qiymətləndirilir.

Qərbi Azərbaycanın etnotoponimlərində metateza, yəni səslərin yerdəyişməsi də mühüm fonetik hadisələrdən biridir. Xüsusilə, oğuz tayfalarının adlarında bu hadisə daha aydın görünür. Mahmud Kaşğarinin qeyd etdiyi Eymür tayfa adı sonrakı mərhələlərdə İmir, Eyrum, Ayrım formalarında işlənmişdir [4, s.718]. Burada sözün kökü qorunsa da, samit və saitlərin yerləşmə ardıcıllığında müəyyən dəyişiklik baş vermişdir. Metateza nəticəsində yaranmış yeni fonetik forma zaman keçdikcə müstəqil toponim kimi sabitləşmişdir. Bu proses yalnız Ayrım etnonimi ilə məhdudlaşmır. Türk dillərində bir çox qədim etnonimlərin fonetik inkişafında metateza hadisəsi müşahidə edilir. Lakin Qərbi Azərbaycanın etnotoponimləri bu baxımdan daha əhəmiyyətlidir, çünki burada metateza nəticəsində yaranmış formaların əksəriyyəti müasir dövrədək yaşayış

məntəqələrinin adı kimi qorunmuşdur. Bu isə fonetik dəyişikliklərin yazılı mənbələr və toponimik material əsasında izlənilməsinə imkan verir.

Fonetik transformasiyalar içərisində assimilyasiya hadisəsi də diqqətəlayiqdir. Eyni artikulyasiya mövqeyinə malik səslərin qarşılıqlı təsiri nəticəsində bəzi etnotoponimlərdə fonetik uyğunlaşma baş vermişdir. Assimilyasiya daha çox mürəkkəb toponimlərdə və şəkilçi qəbul etmiş formalarda müşahidə olunur. Bu zaman sözün əsas kökü dəyişməsə də, tələffüz rahatlığı naminə müəyyən fonetik uyğunlaşmalar yaranır. Məsələn, bəzi dialektlərdə Bayandır və Bayandur, Avşar və Ovşar formalarının paralel işlənməsi həmin prosesin nəticəsi hesab edilir [8, s.74-75].

Türk etnotoponimlərində proteza və epenteza hadisələri də müəyyən hallarda qeydə alınır. Proteza sözün əvvəlində əlavə səsin meydana çıxması, epenteza isə söz daxilində yeni səsin yaranması ilə xarakterizə olunur. Qərbi Azərbaycan materialında bu hadisələr digər fonetik dəyişikliklər qədər məhsuldar olmasa da, bəzi lokal variantlarda müşahidə edilir. Belə formaların yaranması daha çox dialekt xüsusiyyətləri və müxtəlif tayfa qruplarının qarşılıqlı dil əlaqələri ilə bağlı olmuşdur.

Fonetik inkişafın digər istiqaməti səs düşümü ilə əlaqədardır. Uzun tarixi inkişaf prosesində bəzi etnotoponimlərin fonetik tərkibində müəyyən səslər ixtisar olunmuş, nəticədə qısa formalar meydana gəlmişdir. Bunun əksinə olaraq bəzi hallarda əlavə fonemlərin meydana çıxması sözün fonetik quruluşunu mürəkkəbləşdirmişdir. Hər iki proses türk dillərinin daxili inkişaf xüsusiyyətləri ilə bağlı olub, etnotoponimlərin semantikasına təsir göstərməmişdir.

Fonetik variasiyaların mühüm xüsusiyyətlərindən biri onların sistemli xarakter daşımasıdır. Əgər müəyyən fonetik dəyişiklik yalnız bir etnotoponimdə müşahidə olunsaydı, onu təsadüfi hadisə kimi qiymətləndirmək mümkün olardı. Lakin eyni fonetik modellərin Aban–Avan, Abar–Avar, Abdal–Avdal, Abaz–Abas, Avşar–Ovşar–Əfşar, Eymür–Ayrım kimi çoxsaylı etnotoponimlərdə təkrar olunması həmin dəyişikliklərin ümumi dil qanunauyğunluqları əsasında formalaşdığını göstərir. Bu baxımdan fonetik transformasiyalar yalnız etimoloji təhlildə deyil, həm də müxtəlif türk dilləri arasındakı tarixi əlaqələrin müəyyənləşdirilməsində mühüm metodoloji əhəmiyyət daşıyır.

**Türk etnotoponimlərinin semantik motivasiyası və toponimyaratma modelləri**

Qərbi Azərbaycanın etnotoponimləri yalnız fonetik və struktur baxımından deyil, semantik quruluşuna görə də mürəkkəb onomastik sistem təşkil edir. Bu sistemdə etnonim ilkin leksik mənasını tam itirmədən yeni nominativ funksiya qazanır və konkret coğrafi obyektin adı kimi sabitləşir. Beləliklə, etnonimdən toponimə keçid prosesi yalnız ad dəyişikliyi deyil, semantik transformasiya hadisəsi kimi qiymətləndirilməlidir. Bu transformasiya nəticəsində tayfanın adı müəyyən yaşayış məntəqəsini, dağ silsiləsini, çayı, yaylağı və ya digər coğrafi obyekti ifadə edən xüsusi ada çevrilir.

Onomastikada bu hadisə onomastik semantikləşmə kimi xarakterizə edilir. Ümumi leksik vahiddən fərqli olaraq etnotoponim konkret referentə malikdir və onun əsas funksiyası artıq etnik qrupu deyil, müəyyən coğrafi obyekti adlandırmaqdan ibarətdir. Lakin həmin coğrafi adın daxilində ilkin etnik məna tamamilə itmədiyindən etnotoponim ikili semantik təbiət qazanır. Məsələn, Bayat, Bayandur, Qarqar, Karkın, Abdal, Əfşar kimi adlar müasir dövrdə, ilk növbədə yaşayış məntəqəsini ifadə etsə də, onların leksik bazasında qədim oğuz və digər türk tayfalarının adları qorunub saxlanılır [8, s.74-140]. Bu xüsusiyyət etnotoponimləri antroponim və hidronim mənşəli toponimlərdən fərqləndirir. Şəxs adı əsasında yaranmış toponimlər adətən konkret fərdin xatirəsini yaşatdığı halda, etnotoponimlər bütöv tayfanın və ya etnik birliyin tarixi yaddaşını əks etdirir. Buna görə də onların semantik yükü daha genişdir və yalnız nominativ funksiya ilə məhdudlaşmır. Qərbi Azərbaycan materialında ən məhsuldar model etnonimin yaşayış məntəqəsinin adına çevrilməsidir. Bu tip semantik keçid qədim türk məskunlaşma sisteminin ən səciyyəvi xüsusiyyətlərindən biri hesab olunur. Müəyyən tayfa uzun müddət yaşadığı əraziyə öz adını vermiş, sonrakı dövrlərdə isə həmin ad tayfanın deyil, yaşayış məntəqəsinin adı kimi işlənməyə başlamışdır. Bayat, Bayandur, Ayrım, Abdal,

Karkın, Əfşar, Kabar, Qarqar kimi adlar bu modelin klassik nümunələridir. Bu toponimlərin hər biri ilkin mərhələdə etnonim olsa da, zaman keçdikcə oykonim statusu qazanmışdır. Maraqlıdır ki, tayfa sonradan həmin ərazidən köçmüş və ya başqa etnik qruplarla qarışmış olsa belə, coğrafi ad dəyişməmiş və ilkin etnik komponent qorunmuşdur. Bu fakt toponimlərin konservativ xarakterini bir daha təsdiq edir. Semantik baxımdan burada "etnos→məkan" modeli fəaliyyət göstərir. Başqa sözlə, etnik kollektivin adı tədricən həmin kollektivin yaşadığı məkanın adına çevrilir. Bu model yalnız Azərbaycan toponimiyasına deyil, ümumilikdə bütün türk coğrafiyasına xas olan məhsuldar nominasiya üsullarından biridir.

Qərbi Azərbaycanın etnotoponim sistemində ikinci məhsuldar semantik model etnonimin hidronim funksiyası qazanmasıdır. Bir çox hallarda tayfanın məskunlaşdığı ərazidən keçən çay, bulaq və ya göl həmin tayfanın adı ilə adlandırılmışdır. Qarqar çayı, Abaran çayı və digər hidronimlər bu modeli əks etdirir [8, s.31, 108]. Burada artıq tayfa adı coğrafi obyektə aid edilir və onun etnik mənşəyi yalnız etimoloji təhlil nəticəsində müəyyən olunur. Hidronimlərdə etnonimin qorunması xüsusi əhəmiyyət daşıyır. Çünki çay adları toponimik sistemin ən sabit qatlarından hesab edilir. Yaşayış məntəqələrinin adları müxtəlif siyasi və inzibati səbəblərlə dəyişdirilə bildiyi halda, hidronimlər daha uzun müddət öz ilkin formasını saxlayır. Bu baxımdan hidronimlər qədim etnonimlərin öyrənilməsi üçün etibarlı mənbələrdən biridir.

Toponimyaratma prosesində müşahidə olunan digər model etnonimin dağ, yüksəklik, təpə və yaylaq adlarına çevrilməsidir. Qərbi Azərbaycan materialında Bayat dağı, Avarandağ, Abbas dağı, Avdalağa kimi nümunələr həmin semantik modeli əks etdirir [2, s.108].

Oronimlərin yaranması adətən müəyyən tayfanın dağlıq ərazilərdə uzun müddət məskunlaşması və ya həmin ərazilərdən yaylaq kimi istifadə etməsi ilə əlaqədar olmuşdur. Belə hallarda dağ və ya yaylaq adı etnik kollektivin adı ilə eyniləşdirilmiş, sonrakı dövrlərdə isə müstəqil coğrafi ada çevrilmişdir. Semantik baxımdan burada "etnos→landşaft obyekti" modeli fəaliyyət göstərir. Bu model türk köçəri həyat tərzi ilə sıx bağlıdır. Yaylaq və qışlaq sisteminin geniş inkişaf etdiyi türk cəmiyyətlərində tayfa adlarının dağ və yaylaq adlarına çevrilməsi təbii nominasiya üsulu olmuşdur.

Qərbi Azərbaycanın etnotoponimik sistemi göstərir ki, eyni etnonim müxtəlif struktur-semantik modellər üzrə inkişaf edə bilir. Məsələn, Bayat etnonimi yalnız kənd adı kimi deyil, dağ, yaylaq və qışlaq adlarında da işlənmişdir. Qarqar həm yaşayış məntəqəsi, həm çay, həm də tarixi ərazi adı kimi çıxış etmişdir. Abaran isə mahal, yaşayış məntəqəsi və hidronim funksiyalarını eyni zamanda yerinə yetirmişdir. Bu fakt onu göstərir ki, etnonim yalnız bir dəfə nominasiya olunmur. Əksinə, o müxtəlif coğrafi obyektlərə ardıcıl şəkildə tətbiq edilərək çoxpilləli semantik inkişaf keçirir. Belə çoxfunksiyalı nominasiya türk toponimiyasının səciyyəvi xüsusiyyətlərindən biridir.

Struktur baxımdan da bu proses məhsuldardır. Eyni etnonim həm sadə (Bayat), həm düzəltmə (Bayatlı), həm də mürəkkəb (Bayat dağı, Böyük Ayrım, Yuxarı Abdallar) toponimlərin yaranmasında iştirak edir. Bu isə etnonimin yalnız semantik deyil, morfoloji baxımdan da yüksək nominativ potensiala malik olduğunu göstərir [6].

Qərbi Azərbaycanın etnotoponimik sisteminin mühüm xüsusiyyətlərindən biri onun lokal xarakter daşımaması, əksinə, ümumtürk onomastik sisteminin ayrılmaz tərkib hissəsini təşkil etməsidir. Müxtəlif türk xalqlarının yaşadığı geniş coğrafiyada eyni etnonimlər əsasında yaranmış toponimlərin paralel şəkildə müşahidə olunması bu adların ümumi tarixi kökdən qaynaqlandığını göstərir. Belə paralellər yalnız tarixi-etnoqrafik fakt kimi deyil, həm də müqayisəli onomastikanın əsas tədqiqat obyektlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Qərbi Azərbaycanda qeydə alınmış Bayat, Bayandur, Əfşar, Karkın, Ayrım, Qarqar, Kabar, Kazan, Abdal və digər etnotoponimlərin eyni və ya yaxın fonetik formalarda Türkiyə, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Başqırdıstan və Şimali Qafqazda da mövcud olması türk xalqlarının ortaq etnik yaddaşını əks etdirən mühüm dil faktıdır. Bu baxımdan etnotoponimlərin müqayisəli təhlili yalnız Azər-

baycan toponimikasının deyil, bütövlükdə türk dillərinin tarixi inkişaf qanunauyğunluqlarının müəyyənləşdirilməsi üçün də geniş imkanlar yaradır [5].

Qərbi Azərbaycanın etnotoponimləri, ilk növbədə, Azərbaycanın digər bölgələrinin toponimik sistemi ilə üzvi bağlılıq nümayiş etdirir [3]. Müxtəlif inzibati bölgələrdə eyni etnonim əsasında yaranmış yaşayış məntəqələrinin mövcudluğu vahid tarixi-etnik məkanın formalaşdığını göstərir. Məsələn, Bayat etnonimi Qərbi Azərbaycanda olduğu kimi, Ağcabədi, Ucar, Şabran, Neftçala və digər bölgələrdə də yaşayış məntəqələrinin adında qorunmuşdur [3, s.36-46]. Eyni vəziyyət Bayandur, Əfşar, Abdal, Ayrım, Qarqar və Karkın etnotoponimlərində də müşahidə edilir. Bu paralellər müxtəlif dövrlərdə eyni tayfa birliklərinin Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmasını göstərməklə yanaşı, toponimik sistemin ümumi inkişaf istiqamətlərini də müəyyənləşdirməyə imkan verir.

Diqqətəlayiq cəhətlərdən biri də həmin etnotoponimlərin yalnız yaşayış məntəqələrində deyil, hidronim və oronim sistemində də təkrar olunmasıdır. Bu fakt eyni etnik kollektivin müxtəlif coğrafi obyektlərə öz adını verməsi nəticəsində geniş nominativ sistem yaratdığını göstərir. Türkiyə ərazisində müşahidə olunan etnotoponimlər Qərbi Azərbaycan materialı ilə müqayisədə daha geniş yayılma arealına malikdir. Bunun əsas səbəbi oğuz tayfalarının XI-XIII əsrlərdə Anadoluda geniş məskunlaşmasıdır. Lakin diqqəti cəlb edən cəhət həmin toponimlərin böyük hissəsinin Anadoluya köçdən əvvəl Qafqaz və Azərbaycan ərazilərində də mövcud olmasıdır. Bayandır, Avşar, Karkın, Bayat, Eymür, Kayı, Salur, Yazır kimi oğuz boylarının adlarını yaşadan yüzlərlə kənd və qəsəbə Türkiyə toponimiyasında bu gün də qorunmaqdadır. Xüsusilə, Avşar və Bayat etnotoponimlərinin Türkiyənin müxtəlif vilayətlərində onlarla təkrarlanması onların geniş areal xarakterini göstərir. Qərbi Azərbaycandakı Əfşar ilə Anadoludakı Avşar, Bayandur ilə Bayandır, Ayrım ilə tarixi mənbələrdəki Eymür arasında müşahidə olunan fonetik uyğunluqlar ortaq oğuz etnik sisteminin dil faktları kimi qiymətləndirilə bilər. Bu paralellər təsadüfi fonetik oxşarlıq deyil, ümumi etnik mənşənin nəticəsidir.

Türkmənistan toponimikası Qərbi Azərbaycan etnotoponimlərinin müqayisəsində xüsusi yer tutur. Bunun əsas səbəbi oğuz tayfalarının mühüm hissəsinin Türkmənistan ərazisində uzun müddət yaşaması və bugünədək tayfa sisteminin müəyyən dərəcədə qorunmasıdır. Türkmənistanda Bayat, Əfşar, Abdal, Karkın, Yomud, Təkə, Salur, Ərsarı kimi tayfa adlarının həm etnonim, həm də toponim kimi işlənilməsi müşahidə edilir. Bu fakt göstərir ki, Azərbaycan və Türkmənistan toponimik sistemləri eyni oğuz onomastik ənənəsinin müxtəlif coğrafi qollarını təşkil edir. Xüsusilə, Bayat, Əfşar və Karkın etnotoponimlərinin hər iki ölkədə eyni semantik funksiyanı yerinə yetirməsi onların qədim oğuz etnik sistemindən qaynaqlandığını təsdiqləyir.

Qazaxıstan toponimik sistemi daha çox qıpçaq dilləri əsasında formalaşsa da, burada da oğuz və erkən türk tayfalarının adlarını yaşadan çoxsaylı etnotoponimlər mövcuddur. Abdal, Bayat, Qarqar, Kabar, Kazan kimi etnonimlərin müxtəlif fonetik formalarda işlənilməsi ümumtürk onomastik sisteminin geniş areal xarakterini nümayiş etdirir. Qazax toponimiyasında bəzi etnonimlərin fonetik görünüşü Azərbaycan materialından fərqlənsə də, onların struktur modeli və semantik əsası dəyişməmişdir. Bu vəziyyət türk dillərinin müstəqil inkişafı nəticəsində yaranmış fonetik variasiyaların ümumi etnik bazanı dəyişdirmədiyini göstərir.

Qazaxıstan və Qərbi Azərbaycan materialında müşahidə olunan paralellər yalnız leksik uyğunluqdan ibarət deyil. Toponimyaratma modelləri, semantik motivasiya və struktur quruluş baxımından da mühüm oxşarlıqlar mövcuddur. Bu fakt ümumtürk onomastikasının vahid tarixi əsaslar üzərində inkişaf etdiyini təsdiqləyir. Qərbi Azərbaycanın etnotoponimləri ayrıca regional sistem deyil, ümumtürk onomastik məkanının tərkib hissəsidir. Bu sistemdə eyni etnonim müxtəlif dövlətlərin toponimik fonduna daxil olaraq yüzillər boyu qorunmuş, yalnız müəyyən fonetik və struktur dəyişikliklərə məruz qalmışdır. Bu baxımdan Bayat, Bayandur, Əfşar, Abdal, Qarqar, Karkın, Kabar, Kazan və digər etnotoponimlər türk xalqlarının ortaq etnik yaddaşının dil göstəriciləridir. Onların müxtəlif

coğrafiyalarda paralel şəkildə yaşaması qədim türk tayfalarının genişmiqyaslı miqrasiya proseslərini, siyasi əlaqələrini və mədəni inteqrasiyasını əks etdirən mühüm onomastik fakt kimi qiymətləndirilməlidir. Məhz buna görə də Qərbi Azərbaycanın etnotoponimlərinin tədqiqi yalnız Azərbaycan onomastikasının deyil, ümumtürk tarixi dilçiliyinin, müqayisəli toponimikanın və areal onomastikanın aktual problemlərinin öyrənilməsində mühüm nəzəri və praktik əhəmiyyət daşıyır.

**Nəticə.** Qərbi Azərbaycanın türk mənşəli etnotoponimlərinin struktur-semantik təhlili göstərir ki, bu coğrafi adlar mürəkkəb dil hadisəsi olmaqla yanaşı, qədim türk etnik tarixinin və onomastik inkişafının ən sabit qatlarından birini təşkil edir. Etnonimlərin toponimləşməsi nəticəsində formalaşmış bu adlar yalnız nominativ funksiya daşımır, həm də türk xalqlarının tarixi yaddaşını, qədim məskunlaşma proseslərini və etnik münasibətlərini özündə yaşadan mühüm dil vahidləri kimi çıxış edir. Qərbi Azərbaycan etnotoponimləri struktur baxımından sadə, düzəltmə və mürəkkəb modellər üzrə formalaşmış, semantik cəhətdən isə etnonimdən oykonimə, hidronimə və oronimə keçidin müxtəlif mərhələlərini əks etdirmişdir. Bu prosesdə fonetik transformasiyalar, morfoloji inkişaf və semantik motivasiya qarşılıqlı şəkildə fəaliyyət göstərmiş, nəticədə zəngin və çoxqatlı toponimik sistem yaranmışdır. Qərbi Azərbaycanın etnotoponimik fondu Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan və digər türk ölkələrinin toponimik sistemi ilə ortaq qanunauyğunluqlara malikdir. Bayat, Bayandur, Əfşar, Abdal, Qarqar, Karkın, Kabar, Kazan və digər etnotoponimlərin müxtəlif türk coğrafiyalarında paralel şəkildə yaşaması onların ümumtürk etnik və dil birliyinin mühüm göstəricisi olduğunu təsdiq edir.

## İstifadə edilmiş ədəbiyyat


1. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, Azərbaycan ensiklopediyası, 1999. 588 s.
2. Əliyeva R. Azərbaycan toponimləri. Bakı, "Qanun" nəşriyyatı, 2002, 136 s.
3. Məmmədov N. Azərbaycanın yer adları. Bakı, Azərnəşr, 1993. 179 s.
4. Mirzəyev H. Amağu kəndinin etnonimləri, ləqəbləri, hidronimləri və yer-yurd adları haqqında. Filologiya məsələlərinə dair tematik toplu (FMDTT) (1-2-ci buraxılış). Bakı, ADPU nəşriyyatı, 2001, s.3-6.
5. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərnəşr, 1994, 248 s.
6. Voroşil Q. Azərbaycan dilinin təşəkkül tarixinə dair qeydlər. Azərbaycan filologiyası məsələləri. Bakı, "Elm" nəşriyyatı, 1983, s.38-40.
7. Yusifov Y.B., Kərimov S.K. Toponimikanın əsasları. Bakı, "Maarif" nəşriyyatı, 1987, 204 s.
8. Гейбуллаев Г.А. К этногенезу Азербайджанцев. Баку, "Элм", 1991, 549 с.


**K.Samadova**

## The structural-semantic characteristics of turkic-origin ethnotoponyms of Western Azerbaijan


**Abstract**

The Turkic ethnotoponyms of Western Azerbaijan constitute one of the oldest layers of Azerbaijani and Common Turkic onomastics and are of considerable scholarly importance for investigating the historical development of Turkic languages, toponymic formation models, and ethnocultural relations. This article examines the Turkic ethnotoponyms found in Western Azerbaijan from a structural-semantic perspective, analyzing their morphological structure, phonetic transformations, semantic motivation and nominative characteristics. Particular attention is paid to the processes through which ethnonyms acquire the functions of oikonyms, hydronyms, and oronyms, the formation of simple, derived and compound toponymic models, as well as the role of phonetic changes (such as the b–v and z–s alternations, metathesis, assimilation, etc.) in the historical development of ethnotoponyms. The ethnotoponyms of Western Azerbaijan are comparatively analyzed alongside the toponymic systems of Azerbaijan, Türkiye, Turkmenistan and Kazakhstan. The study demonstrates that the preservation of identical ethnonyms across different Turkic regions confirms that the Common Turkic onomastic system is based on shared historical foundations. The findings substantiate that

ethnotoponyms perform not only the function of geographical names but also serve as important linguistic units reflecting the ancient ethnic memory of the Turkic peoples, migration processes, and historical linguistic contacts. It is concluded that the ethnotoponymic system of Western Azerbaijan, owing to its structural and semantic characteristics, forms an integral part of Common Turkic onomastics and its comprehensive investigation contributes significantly to the theoretical foundations of Azerbaijani onomastics, historical linguistics and comparative Turkic toponymy.

К.Самедова

## Структурно-семантические характеристики этнотопонимов тюркского происхождения в Западном Азербайджане

**Аннотация**

Тюркские этнотопонимы Западного Азербайджана представляют собой один из древнейших пластов азербайджанской и общетюркской ономастики и имеют важное научное значение для изучения исторического развития тюркских языков, моделей образования топонимов и этнокультурных связей. В статье тюркские этнотопонимы, распространённые на территории Западного Азербайджана, исследуются в структурно-семантическом аспекте; анализируются их морфологическое строение, фонетические трансформации, семантическая мотивация и номинативные особенности. Особое внимание уделяется процессам перехода этнонимов в ойконимы, гидронимы и оронимы, формированию простых, производных и сложных моделей топонимов, а также роли фонетических изменений (чередование b–v, z–s, метатеза, ассимиляция и др.) в развитии этнотопонимов. Этнотопонимы Западного Азербайджана сопоставляются с топонимическими системами Азербайджана, Турции, Туркменистана и Казахстана. В результате исследования установлено, что сохранение одних и тех же этнонимов в различных тюркских регионах свидетельствует о единой исторической основе общетюркской ономастической системы. Обосновано, что этнотопонимы выполняют не только функцию географических названий, но и являются важными языковыми единицами, отражающими древнюю этническую память тюркских народов, миграционные процессы и исторические языковые контакты. Сделан вывод о том, что этнотопонимическая система Западного Азербайджана по своим структурным и семантическим особенностям является неотъемлемой частью общетюркской ономастики, а её комплексное изучение вносит существенный вклад в развитие теоретических основ азербайджанской ономастики, исторического языкознания и сравнительной тюркской топонимики.